Anı yaşa!

ÖMƏR SEVİNÇGÜL

# Əyləncəli fəlsəfə



TABULA RASA

qanun nəşriyyatı

ÖMER SEVİNÇGÜL

# Keyifli Felsefe



TABULA RASA

Fəlsəfə tarixinin ən böyük filosoflarının həyatını, fikirlərini, maraqlı həyat hekayələrini əyləncəli şəkildə, qısa və hekayə kimi şirin dillə təsvir edən bir kitabdır. Müəllif Şərqin və Qərbin bütün böyük filosoflarını bir kitaba sığdıraraq, sanki onları fəlsəfə tarixinin geniş, işıqlı səhnəsinə çıxarır. Sadə, axıcı təhkiyəsi, maraqlı əhvalatları, həyatdan götürülmüş hadisələri ilə oxucunu da bu səhnəyə çıxararaq, sanki ona da bu tamaşada kiçik rol verir.

# Ömər Sevinçgül

Yazıçı olmağa orta məktəb illərində qərar verib. Əsərləri gənc oxucuların marağına səbəb olduğundan "gənclik kitablarının yazıçısı" kimi tanınıb. Yazıları və hekayələri ədəbi jurnallarda dərc olunub. Gənclər üçün televiziyada incəsənət, ədəbiyyat və fəlsəfə mövzusunda verilişlər hazırlayıb, ölkədə və xaricdə seminarlar təşkil edib.

Vaxtilə dövlət müəssisələrindən birində mühəndis işləyib. 1996-cı ildə Müasir Mədəniyyət Mərkəzini yaradıb. Bir qrup orta məktəb və universitet tələbəsi ilə birlikdə "Adı Yok" jurnalını nəşr etdirib. 2005-ci ildə "Carpe Diem" Nəşriyyat Evini yaradıb və doqquz il onun müşaviri olub. Gənc yazıçıların yetişdirilməsinə öz töhfəsini verib. Kitabları ingilis, alban, Bosniya, ərəb və alman dillərinə tərcümə olunub.

*youtube / yazaromersevincgul*
*instagram / yazaromersevincgul*

**Türk dilində nəşr olunan kitabları**

- Keyifli Felsefe – Baba Filozoflar
- Keyifli Felsefe – Tabula Rasa
- Keyifli Felsefe – Memento Mori
- Keyifli Felsefe – Carpe Diem
- Seni Seven Biri Var
- Sonsuz Hayat Seni Bekliyor
- Her Şey Ânını Bekler
- Sana Yeni Bir Dünya Gerek
- İnanıyorum Öyleyse Varım
- Sonra Bir Gün O Geldi
- Beni Bana Bırakma
- Sana Hayret Yakışır
- Sıradan Biri Olmak İstemiyorum
- Kulluğum Sultanlığımdır
- Şiraz ve Şehzade
- Şiraz ve Sultan
- Bir Gizli Hazine idim
- Sırlar Mağarası
- Sırlarla Dolu Bir Adam
- Gizemli Gölgeler Ülkesi
- Hayat Sevince Güzel

- Uykumu Geri Ver!
- Kalbinin Sesini Dinle
- Beni Yalnız Sen Anlarsın
- Yazar Olmak İstiyorum
- Anne Neden Kedilerin Elleri Yok?
- Sensiz Ama Seninle
- Her Yerde Seni Aradım
- Sakın Arkana Bakma!
- Mervin – Beni Ararsan Bulursun
- Mervin – Esaretten Kurtuluş
- Küçük Lügat

**İngilis dilində nəşr olunan kitabları**

- The Eternal Life Awaits You
- Short, Easy, Fun Philosophy
- There is One Who Loves You
- Life is Beautiful When One Loves
- 'Mervin' Search, and You Will Find Me

**Ərəb dilində nəşr olunan kitabları**

- Al-Hayatu jamilah indama Nuhib
- Falsafah Khafifah Zarifah
- Al'Hayatu L-abadiyyah Tantaziruk
- Mervin in Tabhas Ânnî Tadjidni
- Mervin Annajatu Mina Al-asr
- Hunâlika Man Yuhibbuk

**Alman dilində nəşr olunan kitabları**

- Es gibt "jemanden", der dich liebt
- Das ewige Leben wartet auf dich!
- Du brauchst eine neue Welt!
- Ich konnte dich nicht dir selbst überlassen
- Mervin du findest mich, wenn du mich suchst
- Alles wartet auf sein moment
- Vertraue dich dem Besitzer deines Herzens an
- Ohne dich aber doch mit dir

**Bosniya dilində nəşr olunan kitabları**

- İma Neko Ko Te Voli

**Alban dilində nəşr olunan kitabları**

- Ja , Kjo Eşte Jeta

Birinci kitabın giriş hissəsində sirli otağımı təsvir etmişdim. Bəlkə, onu oxumamısan. Burada qısaca danışım, sən də xəyallarında canlandır.

Köhnə dövrlərə aid evimin xeyli dərinliyində yerləşən bu otaq, ehtimal ki, Bizans dövründən qalmadır. Fəlsəfə mövzulu yazılarımı yazmaq üçün düz gecə yarısı ora düşürəm.

Tilsimli otağımda nə işıq var, nə də səs. Tarixi masanın üzərində kəllə skeleti var. Bir şam yandırıb onun üstünə qoyuram. Şamlar yananda, şəffaf bədənləri ilə filosoflar gəlirlər. Qeyri-maddi cisimlər kimi görünürlər.

Dəvətsiz qonaqlarım arasında filosof olmayanlar da var. Müslüm Baba, Dəli Ziya, Rəna, Güldanə, Onur belələrindəndir. Əvvəlki kitabda onları bir az təqdim etmişdim.

Bu qəribə məclislərdə baş verənlərlə, danışılanlarla və gedən fəlsəfi müzakirələrlə maraqlanırsansa, xəyali şəkildə sən də iştirak edə bilərsən.

Bu gecə yenə sirli otağımıza endim. Şamları yandırdım. Masa arxasına oturdum. Qabağımda dəftər, əlimdə qələm.

Qonaqlarım şəffaf bədənləri ilə gəldilər, yerlərini aldılar.

Pişiyim Təvafuq masamın üstündə iki kəllə arasında özünə yer tapıb. Bəzən danışılanlara qulaq asır, bəzən də mırıldanırdı.

Bilmirəm, demişdimmi, bu yığıncaqlara "cəlsə"[1] deyirik. Məclis ilə eyni kökdən olan bir kəlmədir. Dəli Ziya təklif etdi, hamımız qəbul etdik. Nə isə...

İkinci mərhələdə tədbirlərdə mövzumuz fəlsəfənin ən əsas cərəyanları olacaq.

Qarşılıqlı müzakirələr üslubunda davam edəcəyik. Qismən Sokrat üslubu ilə. Tələbəsi Platon da öz əsərlərində buna oxşar üslubdan istifadə edib. Amma bizim üslubun özünəməxsus tərəfləri də var. Oxuduqca görəcəksən.

---

[1] Cəlsə (جلسة) ərəb mənşəli sözdür və "iclas", "toplantı", "seans", "dərs saatı", "mühazirə hissəsi" mənalarında işlənir *(red. qeydi)*.